**COP29 çərçivəsində "Qlobal Maliyyə Sistemi: İqlim fəaliyyəti üçün maliyyələşdirmənin artırılması" mövzusunda tədbir keçirilib**

COP29 çərçivəsində "Qlobal Maliyyə Sistemi: İqlim fəaliyyəti üçün maliyyələşdirmənin artırılması" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir COP29 Sədrliyi, Azərbaycan Mərkəzi Bankı, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun birgə təşkilatçılığı ilə baş tutub.

Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov açılış nitqi ilə çıxış edərək Azərbaycanın yaşıl keçidi inkişaf etdirməyə sadiq olduğunu bildirib. Onun sözlərinə görə, Azərbaycanın 2030-cu il üçün sosial-iqtisadi inkişafının beş sütunundan biri də ölkənin yaşıl inkişafına nail olmaqdır. Taleh Kazımov 2024-cü ilin Prezident İlham Əliyev tərəfindən Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu əlavə edib. O bildirib ki, ümumi enerji kompleksində bərpaolunan enerjinin rolu "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda 24 faiz artırılmalıdır.

"Azərbaycan Mərkəzi Bankı dayanıqlı maliyyənin yol xəritəsini qəbul edib ki, bu da bir sıra şərtləri özündə birləşdirir. Birincisi, biz yaşıl maliyyə üçün funksional ekosistem hazırlayacağıq. Biz maliyyə institutları tərəfindən davamlı, yaşıl maliyyə istiqamətində biznes modelləri və strategiyalarının keçidini təmin edəcəyik və yol xəritəsi aşağı karbon emissiyası səviyyəsinə keçidi dəstəkləyəcək. Bildiyiniz kimi Azərbaycanın Milli Müəyyənləşdirilmiş Töhfəsi (NDC) 1991-ci illə müqayisədə 2050-ci ilə qədər emissiyanın 40 faiz azaldılmasını nəzərdə tutur. Azərbaycan Mərkəzi Bankı milli yaşıl taksonomiyasını işləyib hazırlayıb. Bu proses müxtəlif maraqlı tərəfləri, nazirlikləri, maliyyə sənayesini, assosiasiyaları və beynəlxalq maliyyə təşkilatlarını əhatə edir", - deyə Mərkəzi Bankın sədri bildirib.

Tədbirin "İqlim maliyyəsi: iqlim ambisiyasının ölçüləbilən fəaliyyətə çevrilməsi" panel müzakirəsində Beynəlxalq Valyuta Fondunun idarəedici direktor müavini Bo Li, Dünya Bankının Davamlı İnkişaf üzrə vitse-prezidenti Yurgen Vogele, Avropa Yenidənqurma və İnkişaf Bankının Siyasət və Tərəfdaşlıq üzrə vitse-prezidenti Mark Bowman və Asiya İnkişaf Bankının vitse-prezidenti (Cənubi, Mərkəzi və Qərbi Asiya) Yingming Yang çıxış edib.

Dünya Bankının Dayanıqlı inkişaf üzrə vitse-prezidenti Yurgen Vogele çıxışında bildirib ki, inkişaf etməkdə olan ölkələr 2030-cu ilə qədər dekarbonizasiya üçün ildə 2,4 trilyon dollara ehtiyac duyacaqlar. Onun sözlərinə görə, bu, təkcə iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması ilə bağlı deyil, iqlim dəyişmələrinə uyğunlaşmanın da maliyyələşməsinə ehtiyac var.

"Dünya Bankı olaraq biz insanlara həm iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması, həm də iqlim dəyişmələrinə uyğunlaşmada kömək etməliyik. Beləliklə, biz həmişə maliyyələşməni 50 faiz olaraq saxlayırıq. Təkcə ötən il biz 43 milyard dollar maliyyə ayırmışıq. Getdikcə daha çox ölkələrin, xüsusən də kiçik ada dövlətlərinin köməyə ehtiyacı var. Biz artıq 14 ölkə ilə hər hansı hadisə baş verərsə, onların borclarını azalda və ya gecikdirə biləcəkləri ilə bağlı razılaşdıq", - deyə Dünya Bankının rəsmisi əlavə edib.

Yurgen Vogele əlavə edib ki, dövlət sektoru maliyyənin olmaması və özəl sektorun maliyyəsini bu sahəyə cəlb etməklə bağlı fikirlər səsləndirirlər: "Lakin dövlət sektoru iqlimə zərər verən sahələrin maliyyələşməsinə 1,25 trilyon dollar ayırır. Bu, qazıntı yanacaqları, kənd təsərrüfatı və balıqçılıq subsidiyalarıdır. Sonra biz bunun fəsadlarının qarşısını almaq üçün bir neçə milyard dollar ayırmağa çalışırıq. Ona görə biz bu subsidiyaları yenidən təyin etməliyik. Mən ümumiyyətlə subsidiyaları kəsmək və ya azaltmaq barədə danışmıram. Ancaq maliyyə ayırdıqda iqlim məsələsinə də diqqət etmək lazımdır".

Beynəlxalq Valyuta Fondunun (BVF) idarəedici direktor müavini Bo Li iqlim dəyişikliyinin iqtisadi və maliyyə sabitliyi üçün böyük riskə çevrildiyini qeyd edib. Onun sözlərinə görə, Beynəlxalq Valyuta Fondunun işi qlobal makroiqtisadi və maliyyə sabitliyini qorumaqdır.

"Buna görə də üç il əvvəl BVF ilk iqlim strategiyasını təsdiqlədi. İki il əvvəl biz Davamlılıq və Dayanıqlı Etimad (RST) proqramını yaratdıq. Bu, üzv ölkələrimizə iqlim dəyişikliyi ilə bağlı problemlərin öhdəsindən gəlməyə dəstək olmaq üçün hazırlanmış ilk uzunmüddətli kredit alətidir. Beləliklə, son iki ildə biz 20 ölkənin RST çərçivəsində maliyyə almasını təsdiqlədik. Xüsusən də aşağıgəlirli ölkələrə və həmçinin həssas ortagəlirli ölkələrə dəstək olmaq üçün 48 milyard dollar vəsait topladıq", - deyə BFV-nin direktor müavini əlavə edib.

Bo Li bildirib ki, BVF yaşıl vergi taksonomiyasını, iqlim fəaliyyətinə dəstək üçün institusional islahatları dəstəkləyir: "BVF Dünya Bankı, Asiya İnkişaf Bankı, Afrika İnkişaf Bankı kimi tərəfdaşlarla iqlim maliyyəsi ilə bağlı dəyirmi masa keçirir, birlikdə necə işləyə biləcəklərini müzakirə edir".

Asiya İnkişaf Bankının (AİB) vitse-prezidenti (Cənubi, Mərkəzi və Qərbi Asiya) Yingming Yang təmsil etdiyi qurumun inkişaf etməkdə olan ölkələrin iqlimə davamlı, iqlimə həssas maliyyə sistemini inkişaf etdirmək, gücləndirmək və dəstək vermək üçün məqsədyönlü və xüsusi səylərini artırdığını vurğulayıb. O bildirib ki, AİB ölkələrə iqlimin maliyyələşdirilməsinə kömək etmək üçün dövlət siyasətinə əsaslanan kreditləşmədən fəal şəkildə istifadə edərək təcrübələri artırmaq üçün regional yanaşmadan istifadə edir.

Daha sonra digər panel iştirakçıları “Qarşılıqlı əməkdaşlıq vasitəsilə iqlim maliyyəsinin genişləndirilməsi” mövzusunda fikir mübadilələri aparıblar. Tərəflər iqlim maliyyəsinin genişləndirilməsinin vacibliyini və bunu qarşılıqlı əməkdaşlıqla reallaşdırmağın əhəmiyyətini vurğulayıblar. Onlar əsasən iqlim dəyişikliyi ilə mübarizədə inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə dəstəyinin artırılmasından və bu sahədə yeni maliyyə mexanizmlərinin yaradılmasından danışıb.

**AZƏRTAC**
**2024, 14 noyabr**